Görüşdə təhsilin müxtəlif istiqamətləri üzrə əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib. Təhsil sahəsində gələcək əlaqələrin möhkəmləndirilməsində bir sıra birgə layihələrin həyata keçirilməsinin mümkünlüyü vurğulanıb və müvafiq əməkdaşlıq müqavilələrinin imzalanması barədə razılıq əldə olunub.

Azərbaycan və Vyetnam arasında təhsil sahəsində hələ sovetlər dövründən mövcud olan səmərəli münasibətlər haqqında söhbət açılıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına uyğun olaraq, ölkəmizdə təhsil almış vyetnamlı tələbələrin iştirakıyla Bakıda Vyetnam-Azərbaycan dostluğu forumunun keçirilməsi məsələsi müzakirə edilib.

Görüş zamanı həmçinin, Azərbaycanın ali təhsil müəssisələrində təhsil alan vyetnamlı tələbələrin sayının artırılması və "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində seçilmiş ali təhsil müəssisələrinin siyahısına Vyetnamın qabaqcıl universitetlərinin də əlavə olunması məsələləri ətrafında fikir mübadiləsi aparılıb. Məktəblilərin Beynəlxalq Kimya Olimpiadasının 2014-cü ildə Vyetnamda, 2015-ci ildə isə Moskva Dövlət Universitetinin Bakı filialının təşkilatçılığı ilə Azərbaycanda keçiriləcəyini nəzərə alaraq, bu istiqamətdə qarşılıqlı təcrübə mübadiləsinin aparılmasının əhəmiyyəti qeyd olunub.